# MƏRKƏZİ ELMİ KİTABXANA BEYNƏLXALQ ELMİ KONFRANS TƏŞKİL EDİR

Konfransın işi aşağıdakı istiqamətlər üzrə planlaşdırılır:

1. Kitabxanalarda süni intellekt: problemlər və perspektivlər;
2. Akademik kitabxanalar rəqəmsal informasiya mühitində;
3. Kitabxana fəaliyyətinin müasir vəziyyəti: Beynəlxalq və yerli təcrübə;
4. Türk dövlətlərində milli-mədəni irsin qorunmasında kitabxanaların rolu.

Konfransın işçi dilləri: Azərbaycan, türk, ingilis, rus

**Konfransın əsas tarixləri:**

Tezislərin göndərilməsinin son tarixi 20 oktyabr 2025-ci il

Konfrans proqramının elan olunması 10 noyabr 2025-ci il

Konfransın keçirilməsi tarixi 21-22 noyabr 2025-ci il

Konfrans kitabxanaşünaslıq, kitabşünaslıq, biblioqrafiyaşünaslıq, mədəniyyətşünaslıq, arxivşünaslıq, tarix və digər ictimai, humanitar elm sahələri üzrə keçirilir.

Tezislərin tərtibinə dair tələblər:

- Tezislər Azərbaycan, türk, ingilis və rus dillərindən birində yazılmalı və elektron formada təqdim edilməlidir;
- Material elektron formada plagiat hesabı ilə birlikdə təqdim edilməlidir;
- Təqdim olunan tezislər əvvəllər çap olunmamalıdır;
- Mövzu konfransın istiqamətlərindən birinə uyğun olmalıdır;
- Təqdim olunan mətn ümumilikdə 3 (üç) səhifədən artıq olmamalıdır;
- Məruzə Microsoft Word mətn redaktorunda A4 formatında, Times New Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətirlərarası intervalla və mətndaxili yazıda 1 sm. abzas buraxmaqla hazırlanmalıdır.
- Xülasə (Azərbaycan, rus və ingilis dillərində 100 sözdən çox olmamaqla) və açar sözlər (Azərbaycan, rus və ingilis dillərində 5 sözdən az olmamaqla), istifadə edilmiş ədəbiyyat siyahısı olmalıdır.

- Müəllif haqqında məlumat (soyad, ad, ata adı, elmi dərəcə, elmi və fəxri ad, iş yeri, vəzifə, telefon nömrəsi, e-mail ünvanı) qeyd edilməlidir.

Elektron ünvan: konfransmek@gmail.com

Konfransla əlaqədar hər hansı təklif və sualla bağlı: konfransmek@gmail.com elektron poçt ünvanına və ya aşağıdakı əlaqələndirici nömrəyə müraciət edə bilərsiniz.

Əlaqə telefonu: (+99412) 5396177

Konfrans 21-22 noyabr 2025-ci il tarixlərində saat 11:00 - da Mərkəzi Elmi Kitabxananın Şuşa zalında (4-cü mərtəbə) keçiriləcəkdir.

Konfransın keçirilmə forması: ənənəvi və onlayn formada.

Qeyd:Konfransda iştirak ödənişsizdir.

Tezislər nəşr olunacaqdır.

Əlaqələndirici şəxs: dosent Şəhla Tahir qızı Quliyeva